Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II (2019-2022)

# Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması

## Layihənin məqsədi nədir?

- Azərbaycanda Avropa Şurasının Qadına qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyasına (İstanbul Konvensiyası) və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması;
- Bu layihə Azərbaycanın dövlət qurumlarına İstanbul Konvensiyasının imzalanması və ratifikasiyası, eləcə də milli qanunvericiliyin və siyasətin Avropa Şurası standartlarına uyğunlaşdırılması istiqamətində dəstək göstərməyə çalışır.

## Layihədən kim faydalanır?

- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi;
- İnsan Hüquqları üzrə Müvəkkilin Aparatı;
- Ədliyyə Nazirliyi;
- Ədliyyə Akademiyası;
- Hüquqşünaslar;
- Vətəndaş cəmiyyəti;
- Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qurbanları;
- Ümumi ictimaiyyət

## Layihə necə fəaliyyət göstərir?

- Üç əsas fəaliyyət sahəsi üzrə:
  - qanunvericilik və siyasət çərçivəsində boşluqların təhlili;
  - məlumatlandırma tədbirləri; və
  - müvafiq tərəfdaşların bacarıqlarının gücləndirilməsi.

## Biz nəyə nail olmaq istəyirik?

- İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair biliklərin təkmilləşdirilməsi;
- Dövlət qurumlarının, İstanbul Konvensiyası da daxil olmaqla qadına qarşı zorakılıq və məişət zorakılığının aradan qaldırılması və ona qarşı mübarizə sahəsində Avropa Şurası standartlarına uyğun milli qanunvericilik və siyasətlərin hazırlanmasında dövlət qurumlarının bacarıqlarının gücləndirilməsi;
- Qadına qarşı zorakılıq və məişət zorakılığı işlərində hüquqşünasların və dövlət qulluqçularının İstanbul Konvensiyası və gender bərabərliyi sahəsində Avropa Şurası standartlarına dair bilik və bacarıqları tətbiq etməsi.

**http://partnership-governance2-eu.coe.int**

## Layihənin büdcəsi nə qədərdir?

- Ümumi büdcə 582,000 Avrodur.
- Büdcənin 80%-i Avropa İttifaqı, 20%-i Avropa Şurası tərəfindən maliyyələşdirilir. Layihə Avropa Şurası tərəfindən həyata keçirilir.

## Layihə hansı müddətədir?

- Layihə 1 iyul 2020-ci il tarixindən 31 avqust 2022-ci il tarixinə kimi davam edəcək.

## Əlavə məlumat necə almaq olar?

- Bacarıqların gücləndirilmə və əməkdaşlıq layihələri bölməsi, Gender bərabərliyi şöbəsi

## Əlaqə Məlumatı

Strasburqda layihə komandası:

- Katerina Boloqnez, Gender bərabərliyi şöbəsinin müdiri, caterina.bolognese@coe.int
- Sandra Veloy Mateu, layihə meneceri, sandra.veloy-mateu@coe.int

Bakıda layihə komandası:

- Pərvanə Bayramova, layihə rəhbəri, parvana.bayramova@coe.int

*Bu layihə, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (II mərhələ, PGG II kimi də istinad olunur) çərçivəsində Azərbaycanla həyata keçirilən ikitərəfli layihədir.*

*2014-cü ilin aprel ayında Avropa İttifaqı və Avropa Şurası razılaşdılar ki, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq çərçivəsində Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri - Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus ilə məqsədyönlü əməkdaşlıq fəaliyyəti həyata keçirilsin. Proqramın birinci mərhələsi (PGG İ) 2015-ci ildə başlamış və 2018-ci ildə bitmişdir; proqramın ikinci mərhələsi (PGG II) 2019-cu ildə başlamış və 2022-ci ilin avqustuna kimi davam edəcək.*

*Bu əməkdaşlıq fəaliyyəti, Belarus istisna olmaqla, Avropa Şurasının üzvü olan Şərq Tərəfdaşlığı ölkələrinin insan hüquqları, demokratiya və qanunun aliliyi sahəsində Avropa standartlarına yaxınlaşmaq üçün daxili islahatlar həyata keçirmək potensialını gücləndirəcək.*

**http://partnership-governance-eu.coe.int**